*Göyçə mahalı, Çəmbərək rayonu Toğulca kəndinin sayılıb-seçilənləri seriyasından*

# ORTA MƏKTƏBİ BİRLİKDƏ BİTİRDİYİMİZ SİNİF YOLDAŞLARIMI XATIRLARKƏN

Kəndimiz, onun tarixi, xüsusilə sovet dövrü haqqında kəndimizin maarifi və təsərüfat həyatı haqqında yazmaq məndə daxili tələbata çevrilib. Nəzərə alsaq ki, sıralarımız seyrəlir, ötən günlər, hadisələr yaddan çıxır, onda məcbur olursan ki, qələmə sarılasan, necə deyərlər unutmayaq ki, unudulmayaq.

Xeyirdə-şərdə görüşdüyüm kənd əhli həmişə məndən bunu gözləyib. Çünki məndə kəndə orta təhsil alıb böyüməklə bərabər,ali təhsil alıb kəndə qayıdandan sonra da uzun müddət burada çalışmış, müxtəlif vəzifələrdə işləməklə kəndi, insanları yaxşı tanımışam, hətta hər biri haqqında şəxsi qənaətim yaranmışdır.

Kəndimiz haqqında, onun insanları haqqında, burada kolxoz və sovxoz quruculuğunun gətirdiyi yeniliklər haqqında, kəndin iqtisadi və təhsil həyatı, onun təbəqələri haqqında yazmağım mənim üzərimə düşən missiya olduğunu, daha açıq desək, sosial sifariş olduğunu dərk etdim və "göyçə mahalının Toxluca kəndinin sayılıb-seçilənləri " seriyasından silsilə yazını ərsəyə gətirməyə başladım.

Növbəti yazını isə orta məktəbdə bir yerdə oxuduğum sinif yoldaşlarıma həsr etdim. Həyatda olmayanlara rəhmət qalanlara can sağlığı arzu edirəm.

1960-1970-ci ilədək Toxluca kənd orta məktəbində oxuyan şagirdlər IX sinifədək iki sinif idi. IX-X sinifdə birləşdik, bir sinif olduq. Sonralar buraxılış sinifləri iki, hətta üç, sinif olmuşdur. Buna da ermənilər yaman qısqanırdılar. Hətta qonşu azərbaycanlı kəndlərdə də üç sinif buraxılış sinifləri olmamışdır. Bəzi qonşu kənd "millətçiləri" sonralar öz kəndlərini böyük göstərmək üçün kəndimiz haqqında təhrif olunmuş, sovxozun təsərrüfatı, kənddəki sosial obyektlər, texnika, təbəqələr haqqında kiçildici yazılar versələr də bu bir fakt idi ki, kəndimiz 1988-ci il deportasıyasında 350 evdən, 470ailədən və 3700nəfər əhalidən ibarət olmuşdur!

1960-1970-ci ildə təhsil həyatımızın ümumi mənzərəsi belə idi ki, Toxluca sovxozu rayon mərkəzi və anklav Başkənddən başqa rayonun ən böyük kəndi, məktəbimizi isə ən böyük (900 şagird, 90-a yaxın müəllim) məktəblərdən biri idi. Toxluca sovxoz, Toxluca kəndi və orta məktəbi Qərbi Azərbaycanın azərbaycanlılar yaşayan ən böyük kəndlərindən və orta məktəblərindən biri idi.

Bunu eqoistlik olaraq yox, elinə-obasına bağlılıq, hər cür mənəvi, sosial, iqtisadi təzyiqlərə baxmayaraq yurd-yuvasını dərk etmək əlaməti olaraq qeyd edirəm.

İndi isə qayıdaq mətləbə, yəni 1970-ci il buraxılışı olan sinfimizə. Biz, 25 şagird idik. Sinif rəhbərimiz Məhəmməd Muradov idi. Bizim iki sinifdən bir sinifdə birləşməyimiz isə kənddə xalçaçılığın inkişafı və dəmir yolunun açılması ilə bağlı idi. Oğlanlar dəmir yolu açılandan sonra yaxınlıqdakı Erməni şəhərlərinə axın edir, burada fəhləlik edirdilər. Orta məktəbdə erməni dili tədris edilmədiyindən bizim gənclər oralarda yalnız adi işlərdə çalışmalı olurdular. Qızlarımız isə evdə xalçaçılıqla məşğul olur, yüksək maaş alırdılar. Ona görə o qədər də orta təhsilə meyilli olmurdular. Mən kənd sovet sədri olanda bu problemi həll etmək üçün, həm qiyabi məktəb açdırdım, həm də peşə məktəbinin kənddəki filialında 3 illik, yəni orta məktəb attestat vermək hüququ olan qrupların açılmasına nail olmaqla hamının orta təhsil almalarına yardımçı olduq.




Məhəmməd Muradov- Çox ciddi, sərt xarakterli, qoçaq adam idi. İdman müəllimi kimidə sərt idi. Ondan yaxşı qiymət almaq çətin idi. Kənd təəssübü çəkən,xeyir-şər məclislərində , məktəbin ictimai həyatında da çox fəal insan idi. Sonralar ailəliklə Bakıya köçdü. Uşaqlarda ictimaiyyətçi uşaqlardır. Kəndimizin tanınmış ziyalıları Şəmsəd Balıoğlu və Kamran Qasımovun məlum kitablarında onlar haqqında əhatəli məlumatı nəzərə alaraq bununla kifayətlənirəm, buraxılış sinif yoldaşlarım haqqında qeydlərimə başlayıram

1-ci sinifdə sinif müəllimlərimiz Moruq Əhmədova və Ceyran Rzayeva idi.Moruq müəllimə məktəbimizin tarixində Respublikanın Əməkdar müəllimi adına layiq görülmüş yeganə müəllim idi.Hər ikisi zahirən və daxilən çox gözəl olmaqla,həm də mülayim təbiətli,həssas və qayğıkeş insanlar idilər.Ceyran müəllimə erməni dilini bildiyinə görə həm də ictimaiyyətci idi.Kənddə bəzi karyerist adamlar onun bu keyfiyyətindən istifadə də edirdilər.Mən əvvəlcə Ceyran müəllimənin,sonra iki il Moruq müəllimənin sinfində oxumuşam. Biz oxuyanda əvvəllər İsa Əhmədov direktor, Qamət Əliyev tədris, Səməd Həsənov isə tərbiyə üzrə direktor müavinləri işləyirdi.Sonralar Qamət Əliyev direktor, Əli İsmayılov tədris işləri, İsa Əhmədov tərbiyə işləri üzrə müavin oldular.

İsa Əhmədov-işgüzar, ictimaiyyətçi adam idi, müxtəlif xidməti vəzifələrdə çalışmışdır.Öncə ictimai fəal, sonra müəllim idi. Direktor kimi mənə xüsusi diqqət yetirir, ictimai fəallığıma önəm veririrdi. Sonralar övladları Vahid və Nazimlə səmimi münasibətlərimizi qoruduq.

Qamət Əliyev-Çox sakit, ehtiyatlı, həm yaxşı müəllim, həm də yaxşı direktor idi. Uşaqlıq və yeniyetməlik dövrümüz bu iki şəxsin rəhbərliyi dövrünə düşdüyündən məktəb komsomol təşkilatı katibi kimi üzərimdə onların çox böyük haqları vardır. Unutmaram. Oğlu Yusif və Vidadi həkim, digər övladları da ali təhsillidirlər. Digər həkim oğlu Kamil isə I Qarabağ savaşı şəhididir

Səməd Həsənov-mən onu tərbiyə işləri üzrə təşkilatçı-müavin kimi tanıyıram..Səməd müəllimin atası Abdulla kişi mənim babamın babası Kərbəlayi Qurbanın qız nəvəsi idi. Çox qaynar təbiətli, hay-küylü, ictimaiyyətçi müəllim-rəhbər idi. O dövrdə məktəblərin, kolxoz və sovxozların rəhbərliyində təmsil olunmaq ermənilərin təzyiqi altında çox qoçaqlıq, daha doğrusu ayıqlıq tələb edirdi. Çünki ayrılıqda hamını vəzifəyə şirnikdirirdilər ki, onların arasında kəndlərdə tayfa ziddiyyətləri, hətta düşmənçiliyi güclənsin. Amma Səməd müəllim vəzifə rəqabəti şəraitində məsuliyyəti və qətiyyəti ilə səviyyəsini qoruyurdu. Təhsilə maraqlı insan idi. Oğlu Vaqif Həsənov orta məktəbi qızıl medalla bitirmiş, Bakıda Pedaqoji Universitetin Kimya fakultəsini, sonra da aspiranturanı bitirərək dissertasiya müdafiə etmişdir. Uzun müddət həmin ali təhsil.müəssisəsində dekan, tədris şöbə müdiri, elmi katib işləmişdir.

Əli İsmayılov-sakit təbiətli, öncə müəllim, sonra tədris işləri üzrə direktor müavini idi.Səliqəli geyinməyə xüsusi fikir verən, həm də çox sofu bir insan idi. Hamını da özündən razı salmağı bacarır, münasibətlərində kompromisi təmin edirdi.

Ramazan Hacıyev - ibtidai siniflər üzrə yarım ştat direktor müavini olaraq yerində olan adam idi.Sakit təbiətli mülayim, metodiki cəhətdən hazırlıqlı müəllim- rəhbər idi

Qələndər Qasımov- uzun müddət fasiləsiz olaraq məktəbin həmraklar təşkilatına rəhbərlik etmiş, Qamət Əliyevdən İbrahim Bayramovadək dörd direktorla birlikdə sağlam pedaqoji kollektivin formalaşmasında yaxından iştirak etmişdir.

Bunlar 60-70-ci illər dövrünün məktəb rəhbərləri olaraq daim yadımızda qalıblar.

Toxluca məktəbinin 70-80 ci illər mərhələsini isə yeni nəsil təhsil təşkilatçıları kimi xatırlayıram.

Xalıqverdi Novruzov -direktor İsmayıl İsmayılov tədris işləri, Qamət Əliyev isə tərbiyə işləri üzrə müavin oldular. Sonradan 1983-cü ildə Qamət müəllim təqaüdə çıxandan sonra onu mən əvəz etdim. O, dövrü həyat və fəaliyyətimin ən yaxşı dövrlərindən sayırdım. Üçümüz də bir-birimizin yaxşı tamamlayırdıq. Yaxşı məktəb direktoru, yaxşı ana dili-ədəbiyyat müəllimi, həm də müsbət xasiyyətli, şən adam idi. Ziddiyyətli münasibətlərdən uzaq, kompromisi sevən, karyerasını qorumaq üçün işinə daim məsuliyyətlə yanaşan rəhbər idi. O,ani bir laqeydlikdən rəhmətlik Azad Namazovun tələsinə düşdü, direktorluğunu əldən verdi, onu Fərman Kərimov əvəz etdi.

Fərman Kərimov - o da yaxşı insan idi.Amma öncə yaxşı müəllim,- sonra yaxşı direktor idi.Ailədən gələn əl qabiliyyəti də var idi. O,təmkinli insan kimi idarəetmədə insan-insan münasibətlərinə üstünlük verməklə,ənənəyə sadiq, ünsiyyəti sevən,müsbət auralı ziyalı rəhbər idi.

İbrahim Bayramov - Fərman müəlimin direktorluğu da az davam etdiyindən, o vaxtlar dəbdə olan alternativ seçki ilə direktor seçildi, mən payızda Naxçıvana köçdüm. O, İsmayıl İsmayılov və Əliyənnağı Məhərrəmovla işlədi. Zəhmətkeş idi.Yaxşı da müəllim idi. Əgər 1988-ci ilin deportasiyası olmasa idi,üçlük olaraq yaxşı işləyəcəkdilər.

İsmayıl İsmayılov - gənc olsa da ağsaqqal davranışı ilə seçilirdi. Təmkinli ayıq, qohum , dost və işcanlı rəhbər idi. O,dörd direktorla öz vəzifəsini qoruyaraq işləmişdir.Həm yaxşı rəhbər, həm yaxşı riyaziyyat müəllimi, həm də yaxşı insan-kollega idi.O,həm məktəb,həm də kənd həyatının bütün incəlikləri ilə maraqlanan,hər şeydən xəbərdar olan,- hər şeyi nəzarətində saxlamağı sevən insan idi.Karyerist deyildi.Kənddə və Gəncədə ona dəfələrlə məktəb direktorluğu təklif olunsa da imtina etmiş,müavin vəzifəsində qalmışdır.

Əliyənnağı Məhərrəmov - mən 1987-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstituna müsabiqə yolu ilə müəllim seçiləndən sonra mənim yerimə o, Toğluca kənd orta məktəbində tərbiyə işləri üzrə direktor müavini təyin olunmuşdur.Yaxşı biologiya müəllimi idi. İşinə isə məsuliyyətlə yanaşırdı. Amma o, məktəbin yeni rəhbərliyi ilə, yəni İbrahim Bayramovla yaxşı işləyəcəkdi. Köçkünlük onun rəhbərlik keyfiyyətlərini göstərməsinə imkan olmadı.

*(Davamı 6-cı səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

# Göyçə mahalı, Çəmbərək rayonu Toğulca kəndinin sayılıb-seçilənləri seriyasından

# ORTA MƏKTƏBİ BİRLİKDƏ BİTİRDİYİMİZ SİNİF YOLDAŞLARIMI XATIRLARKƏN

Orta məktəbi birlikdə oxuduğum şagird yoldaşlarım aşağıdakılar idi:

1. Həsənov Nizami (Aslan) Həmid oğlu
2. Əhmədova Tamara Məhərrəm qızı
3. Nadirov Məhəmməd Aslan oğlu
4. Novruzov Qasım Oysar oğlu
5. Şamilov Sərvəz Tahir oğlu
6. Bayramova Zeynəb Aslan qızı
7. Seyidova Nəvvarə Mirqasım qızı
8. Qocayev Məhəmməd Abdulla
9. Məhərrəmova Xədicə Məhəmmədtağı qızı
10. Məmmədov Tofiq Məhərrəm oğlu
11. Həsənova Bənövşə Gülməmməd qızı .
12. Novruzov İslam Vəli oğlu
13. Həsənov Hüseyn İsmayıl oğlu
14. Hacıyeva Gülüsüm Bayram qızı
15. Ramazanov Əlıddin Həşim oğlu
16. Bayramova Şamama Musa qızı
17. Məmmədov İbrahim Heydər oğlu
18. Məmmədov Bayraməli Oruc oğlu
19. Əliyev Kərəm Həvil oğlu
20. Həsənov Rza İsgəndər oğlu
21. Aliyeva Savad Musa qızı
22. Hümbətova Bəsdi Nəsib qızı
23. Aslanova Saniyə Səfər qızı
24. Hüseynova Raya Abdulla qızı
25. Əsgərov Rəhim Bayraməli oğlu
26. Tağıyeva Minayə Behbud qızı
27. Bayramov Həsən Bayram oğlu

Aslan (Nizami) Həsənov- Sinif nümayəndəmiz idi. Sinifdə ən yaxşı oxuyan tələbəmiz olaraq, yaxşı liderlik keyfiyyətləri var idi.Hamı ilə, xüsusilə,yuxarı sinifdə oxuyan Nəvvarə Seyidova-sinifdə yaxşı oxuyan qızlarımızdan biri idi, ictimaiyyətçi və təşkilatçı idi. Sonralar məktəbdə müəllim yoldaşı olaraq da birlikdə çalışdıq. O da sinif yoldaşımız Məhəmməd Qocayevlə ailə həyatı qurdu. Qızının cavan rəhmətə getməsi Nəvvarə xanıma çox pis təsir etdiyindən onun çox cavan rəhmətə getməsinə təkan oldu.

Məhəmməd Qocayev- yaxşı oxuyan idi. Gəncədə Kənd Təsərrüfatı Akademiyasını bitirmişdi və kəndimizdə sovxozun baş baytar həkimi idi. Uşaqlığım Məhəmmədgilin evində keçmişdir. Atası Abdulla kişinin, anası Gülsüm bibini rəhmətlə yad edirəm.

Əlıddin Ramazanov-Mənim səmimi münasibət saxladığım şagird dostlarımdan biri də qonşumuz Həşim kişinin oğlu Əlıddin idi.O hüquq fakültəsini bitirmişdi. Bir müddət Şuşada, sonralar isə səhv etmirəm Gəncədə və Şəmkirdə prokurorluqda müstəntiq işlədi. Gəncəbasar tərəflərə gedəndə həmişə görüşərdik. O da vaxtsız vəfat etdi.

Hüseyn Həsənov-Xudular İsmayılının oğlu idi. Uşaqlıqdan indiyədək dostluğumuzu qoruyuruq.Hətta mən kənd soveti sədri işləyəndə onu işə götürdüm, Vergi müfəttişi idi. Həyat yoldaşı da atamın xalası nəvəsidir. Çox səmimi və etibarlı dost olmaqla yanaşı yaxşı işçi idi.

Bənövşə Həsənova-Məşədi İsmayıllı tayfasından Gülməmməd kişinin qızı idi. Yaxşı oxuyurdu. Sonra da Gəncədə Pedaqoji institutu bitirdi. O salam-sağ olumuz olur.

Qasım Novruzov-atamın dayısı qızının oğlu idi. Pis oxumurdu. Qardaşı Bakıda yaşadığından institutu qurtarıb kəndə qayıtmadı. Bakıda onun yanında qaldı.İndi kəndimizin icmasının ən məsuliyyətli üzvlərindən biridir. Tez-tez görüşürük. Ərkyana münasibətlərimiz var.

Savad Alıyeva -çox savadlı, mərifətli, nümunəvi qız idi. Həm də ictimai fəallığı ilə bir çox qızlardan seçilirdi. Sonralar Nizaminin qardaşı, kəndimizin mədəniyyət evinin müdiri Müzəffər Həsənovla ailə qurdular. Ləyaqətli övladları var. İndidə Badamdar qəsəbəsində qonşuyuq .

Bəsdi Hümbətova - kənddə qonşu idik, yaxşı oxuyan, güclü yaddaşı olan qızlardan idi. Sonralar Bakıya ərə getdi, Hidayət kişinin oğlu Məhərrəm Həsənovla ailə qurdular. Oğlu və qızı səhv etmirəmsə İspaniyada yaşayırlar.

Xədicə Məhərrəmova -kəndimizin dini-mənəvi ağsaqqallı olan Molla Məhəmmədtağı kişinin ailəsində doğulmuşdur. Ata-anası təhsilə, maarifə çox meylli insanlar idi,9 uşağın hamısına ali təhsil vermişdlər.Onlardan biri elmlər doktoru, ikisi də elmlər namizədidir.İrəvanda institut yoldaşı, əslən Ağbulaqdan olan Xalıqverdi Abbasovla ailə qurmuşdu. O də Çəmbərək rayonunda təhsili idarəetmədə tanınmış adam idi, deportasiyadan sonra Çardaxlıda, Bakıda məktəb direktoru işləmişdir.Xədicə daim yaxşı oxumağa cəhd edən idialı qız idi və çox xeyirxah idi. Çox

Minaya Tağıyeva- Behbud kişinin qızı idi. Anası Məhəmməd Qocayevin böyük bacısı, bizə də qohum idi. Çox istiqanlı, uşaqların sevimlisi qız idi. Nəcəf kişinin böyük oğlu Əsgərlə evlənmişdi. Çox nümunəvi, yaxşı dolanması olan ailə idi. Amma uşaqlarının olmaması onların nisgillinə səbəb oldu, həmişə narahat idilər. Allah hər ikisinə rəhmət etsin.

Raya Hüseynova -sakit təbiətli, üzdə fağır görünsədə çox ayıq və ünsiyyətcil idi. Sinfə yovuşmaz idi, sanki onun öz daxili aləmi var idi.

Bayraməli Məmmədov- Tofiq Məmmədovun əmisi oğlu, Məhəmməd Qocayevin isə bacısı oğlu idi.- Çox şən , zarafatcıl və gülərüz oğlan idi. Qız-oğlan fərq etmədən hamı ilə çox xoş ünsiyyəti var idi. Məktəbi bitirəndən sonra ailəliklə Gəncəyə köçdülər. Bu yaxınlarda görüşdüm yenə də, zarafatından qalmadı.Onunla da , Novruzov İslamla da həmişə ərkyanə zarafatlarımız var idi.

Kərəm Əliyev- Çox sakit təbiətli, qaradinməz, daxili dünyasına üstünlük verən, özünəməxsus xarakteri olan bir oğlan idi. 9 cu sinifdə bu cür xasiyyətdə biri də var idi. O Tahir Qocayev idi.Xarakter baxımından bir- birilərinə çox oxşayırdılar və yaxın dost idilər.Sonralar isə, yeznəqayın oldular.

Məncə, yaddan çıxan qalmadı. Öncə mənə bu sahədə yardımçı olan sinif yoldaşlarıma, xüsusilə Nizamiyə, Tofiqə və Hüseynə təşəkkür edirəm.

Yoldaşlarımdan demək olar ki, uşaqlarla yaşlı ünsiyyətə , səmimi münasibətə üstünlük verən idi. Tələbəlik vaxtı Bakıdada, hərbi xidmət vaxtı uzaq Sibirdə də qonşu idik, kəndə də birlikdə çalışdıq.- Mən qəsəbə Sovetinə sədr seçiləndə, öz yerimi raykon komsomolun katibliyini də ona təhvil verdim.İndi Gəncədə yaşayır, səmimi ünsiyyətimizi davam etdiririk.

Tofiq Məmmədov-şagird dostu idik. Tələbəliyimiz də Xutorda birlikdə keçdi. O, sonralar sinif yoldaşımız Kəmalə xanım ilə evlənərək Bakıda qaldı. Nizami, mən, bir də tələbəlik illərində sıx ünsiyyətimiz olan rəhmətlik Nəvvarə müəllimə, nəhayət Sərvət Şamilovla Zeynəb Bayramova Xutor qəsəbəsinin tələbə dostları idik. Tofiq sonralar Bakı şəhərinin ən peşəkar diş həkimi kimi məşhurlaşdı,hamımıza təmənnasız xidmət göstərdi.

Sərvəz Şamilov-Atası əslən Qazaxa köçən Qərbi Azərbaycanlı idi. Atası rəhmətə gedəndən sonra dayıları onları kəndimizə köçürdülər.İki qardaş idilər:Sərvəz və Eyvaz.Sonralar Sərvəz sinif yoldaşı Zeynəb Bayramova, Eyvaz isə şagird dostumuz Nizami Həsənovun bacısı ilə ailə qurmuşdular.

Zeynəb Bayramova-atamın əmisi oğlu,tayfamızın atamdan sonrakı ağsaqqalı olan Aslan əminin qızı kimi isti münasibətimiz var idi. Orta məktəbdəki kimi institutda o, qiyabi,mən əyani oxuyurduq. Sonralar isə ər-arvad onlarla münasibətimiz davam etdi. Heyf ki, çox tez rəhmətə getdilər. vaxtlar Bakıda işləyən və kəndimizin sayılıb-seçilən cavanlarından olan Baxşəli Pirimovla ailə qurdu. Bənövşə müəllimə Bakıda orta məktəbdə uzun müddət dərs hissə müdiri işlədi, Xətai rayonun ən yaxşı təhsil təşkilatçılarından biri hesab olunurdu.Amma təəssüf ki, tez rəhmətə getdi.

Tamara Əhmədova -pis oxumurdu. Çox xoşxasiyyət, səmimi qız idi. Hamının hər işinə yarayırdı, sonralar Qazax şəhərində, qohumları ilə ailə qurdu.

Şamama Bayramova-Hamamçı Musanın qızı kimi xatırlayıram.Çox şən, səmimi qəlbitəmiz, evcanlı qız idi. Basarkeçər tərəfə ərə getmişdi. Həyat yoldaşı da kəndimizin xeyirində, şərində həmişə iştirak edirdi. Onların çox mərifətli oğlu var. Adını unutdum.

İbrahim Məmmədov- Üç qardaş olduqları yadımda qalıb, o, Şükür və Müzəffər. Hər üçü də Gəncədə yaşayırdılar.İbrahim özgüvənli, sağlam görkəmli oğlan idi, Şükür də zarafatcıl,xeyirxah bəstəboy oğlan idi.

Rza Həsənov-çox qoçaq, mərd idi. Liderlik keyfiyyətləri vardı. Gözəl, məlahətli səsi ilə kəndimizdəki toyların bəzəyi idi. Allah ömür versin, indi də ünsiyyətimiz qalır.

Məhəmməd Nadirov -Nadirlar tayfasından Aslan kişinin oğlu idi.İlk baxışda qaradinməz, az danışan, adamayovuşmaz idi. Amma cəhd edəndə ünsiyyətə meylli idi. Yaxşı münasibətlərimiz var idi. Bakıda qardaşım Əligillə qonşu olduğundan hərdən təəssüf ki,hər ikisi vaxtsız vəfat etdilər. Övladları İsmayıl indi Suraxanı rayonu Hərbi komissarıdır.

Saniyə Aslanova Saniyə-kəndimizin müəllimlərindən olan Səfər müəllimin qızı idi. Yaxşı oxuyurdu. Səhv etmirəmsə,o, Tibb məktəbini də bitirmişdi. Sonralar Basarkeçərə ərə getdi. Həlim, səmimi, ürəyiaçıq bir qız idi. Qardaşı Nurəddinlə dostluğumu köhnə arıçı yoldaşı kimi indi də qoruyuram.

İslam Novruzov-çox sakit, özünəməxsus daxili iç dünyasına qapanan, amma diqqət yetirib, ünsiyyət qurandə çox səmimi və dürüst idi. Mürəkkəb və sterjin qələmlərin zəngin kolleksiyası vardı. Hərdən mənə də hədiyyə edərdi İrəvanda texnikumu bitirmişdi, kəndimizdəki əmanət kassasında işləyirdi. Deportasiyadan sonra Bakıda da səhv etmirəmsə bu sahədə çalışdı.

Gülsüm Hacıyeva, -çox həlim, yumşaq təbiəti, incə bir qız idi. Atamla anası qohum olduğundan mənədə doğmalığı var idi. O,sonra başqa yerə ərə getdiyindən onu görə bilmədim, yalnız qardaşlarından, qohumlarından soruşuram.

Rəhim Əsgərov-çox sağlam, qoçaq etibarlı və dürüst oğlan idi. Orta təhsildən sonra Daşkəsəndə yaşayan qardaşı Mehbalının himayəsində oldu. Əslən Ağbulaqlı bir ailənin(Gəncədə onа Qoçu Səməd deyirdilər) qızı ilə evləndi.Daşkəsəndə ağır tonnajlı avtomobil sürücüsü olaraq filiz çıxarma sahəsində İşləyirdi. Amma çox erkən vəfat etmişdir.

hamısının ya ali, ya da texnikum təhsili, ya da peşə təhsili var idi.İlk dəfə idi ki qızlardan beşi ali, üçü də texnikum təhsili aldı, əvvəllər bu rəqəm az idi Şagirdlərimizdən mənim, Sərvəzin və İsanın atası rəhmətə getmişdi, qalanları atalı-analı böyüdülər. Uşaqlardan doqquzunun o vaxt atası, ya da anası başqa kənddən idi:(mənim, İsanın, Gülsümün, Navvaranin, Xadicanin, Bənövşənin, Əlıddinin, Rəhimin anaları, Sərvəzin isə atası). Amma heç vaxt ögeylik yaşamadıq. Kənd ruhu o qədər güclü idi ki, indi də bu birliyi qoruмaqdayıq.

Şagird dostlarımızdan altısı-Sərvəz, Zeynəb, Nəvvarə,Xədicə, Bənövşə, İslam, Rəhim və Əlıddin Allahın rəhmətinə qovuşmuşlar. Uşaqlardan beşi (mən, Zeynab, Nəvvarə, Xədicə, Bənövşə ali təhsili müəllim, Nizami, Sərvəz, Qasım mühəndis, Əlıddin hüquq, Məhəmməd isə baytar, Gülənbar Tamara, Gülsüm, İslam, Hüseyn, Qurban texnikum təhsilli həkim və ya mühasib Rəhim, İsa, Məhəmməd sürücü olaraq uzun müddət peşələrini davam etdirmişlər. Onlardan hal-hazırda mən, Nizami, Tofiq, Qasım peşəmizə uyğun çalışırıq. Mən Bakı Qızlar Universitetinin professoru, elmlər doktoru və kafedra müdiri olaraq müəllimlik peşəmi davam etdirir, kənd icmasının təşkilatlanması ilə məşğulam.

*(Davamı 16-cı səhifədə)*

Göyçə mahalı, Çəmbərək rayonu Toğulca kəndinin sayılıb-seçilənləri seriyasından

# ORTA MƏKTƏBİ BİRLİKDƏ BİTİRDİYİMİZ SİNİF YOLDAŞLARIMI XATIRLARKƏN

*(Əvvəli 6-cı səhifədə)*

Nizami Gəncədə Avasiya təmir-texniki sexinin müdiri vəzifəsində, Tofiq özəl stomatoloji poliklinikada həkim, Qasım da mühəndis olaraq özəl sahədə çalışmaqdayıq.

X sinfi 27 nəfər bitirdik, hamısından da bəhs etmişəm.Amma yaxınlıq etdiyim doqquzuncu sinfədək birlikdə oxuduğum uşaqlardan da bəzilərini yad etdim.

Məhərrəm Həzrətquluyev-Yaxınlıq etdiyim uşaqlardan biri idi. Atası Tanrıverdi kişi, anası Qələmə xala çox səmimi, mülayim insanlar idilər. Mən kənd soveti sədri olanda o kişidən çox dəstək gördüm. Oğlu Məhərrəm isə çox sağlam, bəstəboy, qıvraq və cəld idi. Mənə də həmişə ərk ilə zarafat edər, atmacalar atardı. Sonralar Şəmkirdə Çardaqlı kandində əvvəlki sənətini, yəni traktorçuluq sənətini davam etdirdi. Oğlu Famil də Şəmkirdə məktəb direktoru, həm də kənd icmamızın fəallarındandır.

İsgəndər Abbasov-Buraxılış sinif şagirdlərimizdan sovxozun elektrik qaynaqçısı kimi onu da ehtiramla xatırlayıram. Onun çox gülərüz atası, xeyirxah anası var idi. Şux, müsbət əhval-ruhiyyəli oğlan idi.Bir-birimizə ərkimiz, hörmətimiz var idi.Sovet sədri işlədiyim vaxt məndən bir xahiş etdi.Onu da qəsdən mənə yönəltmişdilər. Amma mən o işi həll etmək gücündə deyildim. Məndən incidi, səbəbini heç soruşmadı. Mən onun xəcalətini hələ də çəkirəm. Çox heyif ki, vaxtsız vəfat etdi, könlünü ala bilmədim.

Qurban Allahverdiyev-Bicoylar tayfasından Məstan kişinin oğlu idi. Sonralar mən kənd soveti sədri olanda o da sovxoz direktorunun köməkçisi idi.Sakit, qaradinməz,amma iş bacaran idi.İndi də münasibətimiz vardır.

İsa Novruzov-atası Talıb kişi erkən vəfat etdiyindən anası Zinyət xala onu böyütmüşdür.O çox sakit təbiətli, qonşu Şınıx (Gədəbəy)tərəfindən idi. Analarımız qərib olduğundan bir-birimizə isinişirdik. İsa ilə münasibətimizi indidə qoruyuruq.

Musa Bəhmənov- Bəstə boy, sakit təbiətli o qədər ünsiyyətə meyili olmasa da,dostcanlı oğlan idi.Bir dəfə də savaşmışdıq, atası da məni danlamışdı.İndi də səmimi münasibətimizi qorumaqdayıq.

Xatırladıqlarımdan bəziləri IX sinifdə bizimlə oxumağa davam etməsələr də, xatırlatdım.

Kəndimiz kənd sovxozunda birləşirdi. Burada şərt ali məktəbdə texnikumda oxumaq deyildi.Əksər uşaqlarımız X sinfi bitirmədilər. Sadə kənd həyatlarını yaşadılar,gözəl ailə qurdular,-gələcək ailə ocağının təməlini atdılar, savxoz təsərrüfat həyatında yaşamaqla gümrah, sağlam, ləyaqətli övladlar yetişdirdilər. Biz bir-birimizin arasında heç fərq qoymadıq, həmişə bir birimizə tay-tuş kimi yanaşdıq. Bu bizim gözəlliyimiz, səmimiyyətimiz və sadəliyimiz idi.Qalanlara can sağlığı, ölənlərə uca Allahın rəhməti olsun!Amin!

Bir maraqlı faktı da deyim ki venetkadan göründüyü kimi mən o vaxtlar rayon və respublika qəzetlərində Həsən Bayramov yox, Həsən Bayramoğlu imzası ilə çıxış edirdim və buraxılış venetkasında da soyadım belə yazılmışdı.Buna görədə ermənilər çox narazı qalmış, məktəbin direktorluğuna xəbərdarlıq elan etmişdilər. Sonralar mən kəndimizdə "Bayramov" kimi çağırılsam da (vəzifədə olanlara belə müraciət edilirdi) həm elmi, həm ictimai-siyasi fəaliyyətimdə bu ifadədən sonadək istifədə etdiyimdən mənə Bayramov yox Bayramoğlu deyə müraciət edilməsini də məmnunluqla qeyd edirəm.

Beləliklə, haqqımda yazmağı özümə borc bildiyim sinif yoldaşımlarım haqqında ürək sözlərimi bütün Toxluca camaatına armağan edir, bu xüsusiyyətlərin onlarda olmasını da məmnunluqla qeyd edirəm. Yəni bütün Toğlucalılar (kəndimiz adətən belə çağırılır) çox səmimi, qohum və elcanlı, xeyirdə-şərdə çox həmrəy, eləcə də fiziki cəhətdən çox sağlam, boylu-buxunlu, gözəl-göyçək olduqları kimi həmdə çox təəssübkeş ictimai proseslərdə fəal olublar.

P.S. Tofiq Məmmədovun mənim haqqımda yazdıqlarını da buraya əlavə edirəm:

Həsən Bayramov: Yaxşı oxusa da, çox dəcəl idi, qızlarla yaxşı yola getmirdi. Məktəb komsomol təşkilat katibi kimi, çox ictimaiyətçi idi. Özünü də biraz üstün aparırdı.Amma mənim ilə bufet dostu idi.Sonra da, bufet dostluğunu davam etdirdik. İndi də tez tez göüşürük. Bəlkə də ,elə ən çox ünsiyyət olanlar da ikimiz idik.Ali məktəb dövründə qonşu olduq.

*Həsən BAYRAMOĞLU,*
*Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının üzvü, Toxluca kənd Sovetinin keçmiş sədri, hazırda isə Qərbi Azərbaycan İcmasının Binəqədi rayon Nümayəndəsi, pedaqogika elmlər doktoru, professor*